# Düşünüb-daşındıran publisistika

**Tanınmış yazıçı və dramaturq Maqsud İbrahimbəyovun həm də dərin və parlaq publisistika ustası olduğunu desək, yəqin ki, yanılmarıq.**

İyirmi ildən çoxdur ki, mətbuatda onun gözəl məqalələrini oxuyuruq. Bu məqalələrdə müəllif Vətəninə, Azərbaycan xalqına zərər vuran hər kəsə və hər şeyə qarşı özünə xas olan sərt barışmazlıqla, qətiyyətlə çıxış edir, bəzi beynəlxalq qurumların Azərbaycana münasibətlərində artıq çoxdan əsas metodlara çevrilmiş demaqoqluğa və ikili standartlara, ölkəmizə ziyan gətirən saxta vətənpərvərliyə, Azərbaycanı içəridən laxlatmağa çalışan vətən xainlərinə qarşı dözülməzlik nümayiş etdirir.

Maqsud İbrahimbəyovun bu günlərdə çapdan çıxmış "Baltimor skunsu" adlı kitabında müəllifi çox narahat edən məsələlərə həsr edilmiş beş məqalə toplanmışdır. Mövqeyinin dəyişməzliyi, sağlam düşüncəsi ilə tanınan, bu və ya digər problemi həmişə daxildən təhlil edən müəllif bu məqalələrin hər birində Azərbaycanın ən yeni tarixinin müəyyən dövrünə müraciət edir. Elə buna görə də jurnalist Nadejda İsmayılova da müəllifin öz dəst-xəttini və manerasını düzgün başa düşərək yazdığı ön sözə "Ən yeni tarixin xronikası" sərlövhəsi seçmişdir.

Maqsud İbrahimbəyovu narahat edən, onu qəzəbləndirən fakt budur ki, çox nüfuzlu beynəlxalq təşkilatların bəzi nümayəndələri ölkəmizin qonşuları ilə həmişə nəzakətlə davrandığı, hətta onların ünvanına ciddi iradlarını da yumşaq tərzdə ifadə etdikləri halda, Azərbaycana münasibətdə saymazyanalıq edirlər.

Görəsən, buna səbəb nədir? "Estoniyalı ikinci Andreas cığallıq yolunda isveçrəli birinci Andreası da ötüb keçdi..." məqaləsində yazıçı bu suala belə cavab verir: "Əgər bu siyasətdirsə, onda çox pis siyasətdir".

"İran qambiti" məqaləsində isə M.İbrahimbəyov qonşu İranın azərbaycanlı əhalisinin hüquqlarının qorunması qeydinə qaldıqlarını söyləyənlərə münasibətini özünəməxsus bir uzaqgörənliklə açıqlayaraq, onların əslində öz xalqının düşməni olmasını aşkar sarkazmla ifşa edir.

Müəllif bu kitaba daxil edilmiş materiallarda başqa problemlərə də toxunur. Məsələn, "Qədim yunan dilindən tərcümə" məqaləsində o, diaspor probleminə toxunmuş, diasporla bağlı ayrı-ayrı məqamlara tamamilə yeni mövqedən yanaşmışdır.

İbrahimbəyovun publisistikasını oxumaq adama ləzzət verir. Özü də təkcə ona görə yox ki, müəllif mövzuya nüfuz etməyi, faktlara, hadisələrə yeni baxış nümayiş etdirməyi bacarır. Həm də ona görə ki, Maqsud İbrahimbəyov heç kəsdən çəkinmədən, konkret adamların və təşkilatların adlarını göstərir və bunu elə incə yumor hissi ilə edir ki, mühakimələrin dəqiqliyinə əsla xələl gəlmir.

Müəllifin bu kitaba daxil edilmiş məqalələrinə xas olan daha bir cəhəti də qeyd etmək istərdim. Onun məqalələri vətənin taleyinə biganə olmayan, bizə əzab-əziyyət gətirən nə varsa hamısının keçmişdə qalmasını arzu edən bir insanın əli ilə yazılmışdır. Bu məqam oxuculara təqdim edilən kitabın adına çevrilmiş "Baltimor skunsu" sərlövhəli məqalədə də hiss olunur. Zənnimizcə, bu, heç də təsadüfi deyildir. Bu məqalə Baltimorda (Amerika) çıxan bir qəzetdə dərc edilmiş məqaləyə yazıçının cavabıdır. Maqsud İbrahimbəyov bu cavabda bizim hamımızın ən ağrılı yerimiz olan Dağlıq Qarabağ məsələsinə, daha doğrusu, bu problemin həllinə müxtəlif, heç də həmişə düzgün olmayan yanaşmalara münasibət bildirmişdir.

"Əksinqilabi etüd" adlanan sonuncu məqalədə də günümüzün çox aktual bir mövzusuna toxunan müəllif həmişəki kimi dəqiq, hər kəsin başa düşə biləcəyi bir dildə məsələnin mahiyyətini açıqlamışdır.

Bu kitaba daxil edilmiş məqalələrin hamısı vaxtilə dövri mətbuatda dərc olunmuşdur. Lakin mənə belə gəlir ki, onları bir də oxumağın zərəri olmaz, çünki gözəl yazıçımız Maqsud İbrahimbəyovun publisistikası bu və ya digər həqiqətə münasibətdə müəllifin öz təsəvvürlərini heç kəsə zorla qəbul etdirməyə çalışmadan düşünüb-daşınmaq üçün ideya verir, oxucunun fikrini istiqamətləndirir.

Oxuculara onu da xatırladaq ki, kitabda ön söz və bütün məqalələr Azərbaycan və rus dillərində verilmişdir.

*Elmira ƏLİYEVA,*
*AzərTAc-ın müxbiri*